Qəhrəmanlar unudulmur

***Vətən müharibəsi şəhidi, Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının baş leytenantı Ceyhun Nəhmədovun şərəfli ömür yolu ilə məni atası Ehtiqad kişi tanış etdi. Masa ətrafında bizimlə birgə əyləşmiş Ceyhunun əmiləri, qardaşı Elnur və uşaqlıq dostu Fərman müəllim də söhbətə ara-sıra müdaxilə edərək onunla bağlı ürək sözlərini dilə gətirdilər.***

# Baş leytenant Ceyhun Nəhmədovun hünər dastanı




Amma, Ehtiqad kişi hər dəfə onların sözünü nəzakətlə kəsir, bu ocağa təşrif buyurmuş yaşlı jurnalistə Ceyhunla bağlı hər bir incə detal barədə nədənsə yalnız özü bəhs etmək istəyirdi. Ata həyəcanlı idi, hətta bir qədər çaşqınlıq içindəydi, ürəyi dolu idi, bilmirdi söhbəti haradan başlayıb harada bitirsin, nəyi qoyub nəyi danışsın.

Axı, şəhid oğlu ilə bağlı indi hər şey Ehtiqad kişi üçün əziz bir xatirəyə çevrilib. Bir də ki, ata Ceyhun barədə dörd il əvvəl qəfil dünyasını dəyişən həyat yoldaşı – şəhidin anasının yerinə də danışmaq istəyirdi. Taleyin zərbələrinə dözmək çətindir. Lakin Ehtiqad kişi təmkinini saxlayır, özünü şax tutmağa çalışırdı. Yalnız səsində ağır bir kədər qarışıq qürur vardı:

– İnanın mənə, çox tərbiyəli, böyük-kiçik yeri bilən idi. Hər yerdə özünə hörmət-izzət qazanmışdı. Rəhmətlik anasını xüsusilə çox istəyirdi! Ondan bu vaxta qədər zərrə qədər inciyən olmamışdı. Müəllimləri, qohum-qonşular Ceyhunun başına and içirdilər.

...Ceyhun Nəhmədov gələcək həyat yolu ilə bağlı qəti seçimini hələ erkən yeniyetməlik illərindən etmişdi. O, ali hərbi təhsil alaraq, Milli Ordunun zabiti olmaq, Vətən torpaqlarını yağı düşməndən azad etmək arzusunda idi. Ürəyini yaxın dostlarına, bir də ki, rəhmətlik anasına açıb demişdi.

Atası Ehtiqad kişi də bundan xəbərdar idi. Dildə deməsə də, ürəyində oğlunun “kişi sənəti”ni seçməsi ilə qürur duyurdu. Atanın ondan da xəbəri vardı ki, Ceyhun özünün həyat idealı hesab etdiyi Birinci Qarabağ müharibəsinin igid komandirlərindən olan həmkəndlisi, Milli Qəhrəman Şikar Şəkərovun şanlı döyüş yolunu davam etdirmək niyyətindədir.

Ceyhun Nəhmədov 2012-ci ildə Mərdəkan qəsəbəsindəki Hacı Zeynalabdin Tağıyev adına orta məktəbi bitirib məhz bu amalla sənədlərini Dövlət Sərhəd Qoşunları Akademiyasına verdi və imtahanlardan yüksək bal toplayaraq bu ali hərbi məktəbə daxil oldu.

Akademiyanı bitirəndən sonra baş leytenant Ceyhun Nəhmədov Yevlax, Qazax, Zaqatalada sərhəd zastavalarında xidmət etdi. O, ötən ilin sentyabrın 27-də başlanan müqəddəs savaşı məşhur Murov zirvəsi uğrunda gedən ağır döyüşlərdə qarşıladı. Elə ilk döyüşdəcə Ceyhun və onun zabit yoldaşları qeyri-adi şücaətlər nümayiş etdirdilər. Ermənilər ağır məğlubiyyətə düçar olaraq döyüş meydanından qaçdılar.

Murovdakı parlaq qələbədən sonra baş leytenant Cəbrayıl, Füzuli, Qubadlı, eləcə də Laçın dəhlizi uğrunda ağır döyüşlərdə iştirak etdi. Döyüşdən-döyüşə bərkidi, qəlbində Böyük Qələbəmizə olan sonsuz inamı daha da artdı.

....Bir dəfə düşmən üzərinə hücuma keçərkən Ceyhun ayağından qəlpə zərbəsi alır. Kəskin ağrılara baxmayaraq, ayağını özü sarıyıb döyüşü axıradək davam etdirir. Tezliklə, komandanlığın tapşırığı şərəflə yerinə yetirilir. Mühüm strateji yüksəklik nisbətən az itki ilə ələ keçirilir. Hərbi hissənin rəhbərliyi ona növbəti dəfə təşəkkür elan edir.

Ötən il noyabrın 8-də sübh tezdən Zəngilanın Ağbənd kəndi uğrunda gedən ağır döyüşdə Ceyhun Nəhmədovun komandiri olduğu xüsusi təyinatlılar dəstəsi özlərindən sayca üç-dörd dəfə çox olan düşmənə sarsıdıcı zərbə endirdi. Düşmən bu dəfə də döyüş meydanından qaçmağa məcbur edildi, lakin Ermənistan ərazisindən atılan qəfil top mərmisi Ceyhunun yanında partlayaraq onu ölümcül yaraladı. Qeyrətli Vətən oğlu bir neçə dəqiqədən sonra gözlərini əbədi yumdu.

Döyüş dostları nəql ediblər ki, həmin səhər çox aydın, günəşli bir gün olub, Ceyhunun şəhadətinə şahidlik edən sonsuz səmanın üzərini birdən-birə ağ, çəhrayı buludlar alıb və yerə göydən göz yaşı kimi nur damcıları səpələnib. Göylər sevimli qəhrəmanın ölümünə acıyıb, həzin bir vida nəğməsi oxuyub.

...Şəhid baş leytenant Ceyhun Nəhmədovun Mərdəkan qəsəbəsindəki ata evinin ikinci mərtəbəsində, uzun və geniş dəhlizin yuxarı başında onun zabit mundiri, furajkası, uşaqlıq, yeniyetməlik fotoları, döyüşçü dostları ilə birlikdə çəkdirdiyi şəkilləri və başqa eksponatlar düzülüb.

Buradakı eksponatları diqqətlə nəzərdən keçirirəm. Fotoların birində Ceyhunla yanaşı duran tanış, məhrəm bir sima da diqqətimi cəlb edir. Ehtiqad kişidən soruşuram:

-Bu ki “Vətən yaxşıdır” mahnısını oxuyan gizir Xudayar Yusifzadədir!

Ehtiqad kişi sanki bu sualı gözləyirmiş kimi şəstlə deyir:

-Bəli, Xudayar özüdür! Ceyhunla Xudayar bir çox ağır döyüşlərdə birgə iştirak ediblər, özləri də bərk dost olublar.

Buradakı daha iki şəkil diqqətimi cəlb edir. Birinci şəkil Ceyhunun beş il əvvəl qəflətən rəhmətə gedən sevimli anası Rəna xanım ilə birgə çəkdirdiyi şəkildir. O biri şəkildə isə Ceyhun özünün nişan mərasimində nişanlısı ilə yanaşı durub. Şəhid atasını kövrəldə biləcəyimi düşünüb bu fotolar barədə əlavə suallar vermirəm.

Şəhid atası bu dəfə ürək dağlayan kədərli bir səslə dillənir:

-Ötən ilin sonunda Ceyhunun toyu olmalı idi. Görünür, qismət deyilmiş... Nə etmək olar. Təki Vətən yaşasın!

Ehtiqad kişi sonra fəxrlə dedi ki, kiçik oğlu Elnur da böyük qardaşı kimi Dövlət Sərhəd Qoşunları Akademiyasına daxil olmağa hazırlaşır. Bəli, Nəhmədovlar nəsli düşmənə qarşı sipər, doğma torpaqlarımıza çəpər olacaq mərd, qeyrətli oğullar tərbiyə edərək böyüdür!

Düşünürəm ki, Vətənin sərhədlərini, bütövlükdə torpaqlarımızı qoruyan igidlərimizin sıx cərgələri heç vaxt seyrəlməyəcək. Qəhrəman şəhidlərimizi, igid qazilərimizi yeniləri əvəz edəcək. Ana Vətən isə öz qəhrəmanları ilə daim fəxr edəcək!

İkinci Qarabağ müharibəsində “Vətən uğrunda”, “Zəngilanın azad edilməsinə görə” medalları və “Vətənə xidmətə görə” ordeni ilə təltif olunan şəhid baş leytenant Ceyhun Nəhmədov qısa, lakin çox şərəfli ömür yaşadı. Məhz belə yenilməz igidlərin qanı-canı bahasına Vətənimiz qəddini düzəltdi, xalqımız qalib kimi başını uca tutdu! Ruhun şad olsun, Vətən oğlu!

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***